azpromo

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan məhsulları “Sial China 2018” Beynəlxalq Ərzaq Sərgisində nümayiş olunacaq

Image not readable or empty
/uploads/images/news/429e65bb588d65d2f15a720621407cfe_600x500-resize_crop-2479.jpg

Mayın 16-dan 18-dək Çin Xalq Respublikasının Şanxay şəhərində keçiriləcək “Sial China 2018” Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan 17 şirkətlə təmsil olunacaq.

Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları “Made in Azerbaijan” vahid ölkə stendi ilə təqdim ediləcək. Pavilyonumuzda meyvə şirələri, konservləşdirilmiş məhsullar, müxtəlif növ şərablar və spirtli içkilər, fındıq, qənnadı məmulatları, çay, zəfəran, quru meyvə və s. məhsullar nümayiş etdiriləcək.